**AZƏRBAYCAN RESPUBLİKASI BAKI ŞƏHƏRİ**
**BİNƏQƏDİ RAYONU İCRA HAKİMİYYƏTİ BAŞÇISININ**
**S Ə R Ə N C A M I N D A N Ç I X A R I Ş**

**№ 175** **28 Oktyabr 2024-cü il**

**Azərbaycan Respublikasında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP 29) keçirilməsi ilə əlaqədar Qərargahın yaradılması haqqında**

2024-cü il 11-22 noyabr tarixlərində Azərbaycanda müxtəlif ölkələri təmsil edən on minlərlə nümayəndənin iştirakı ilə dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP 29) keçiriləcəkdir.

Bununla əlaqədar Rayon ərazisində bütün həyati vacib sahələrin, o cümlədən elektrik, qaz, su, yol infrastrukturunun, mühəndis-kommunikasiya sistemlərinin, habelə tibb müəssisələrinin və digər qurumların ciddi əlaqələndirilmiş şəkildə dayanıqlı, fasiləsiz fəaliyyətinin təmin edilməsi məqsədi ilə, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.9.1, 3.9.5, 3.9.10, 4.2.7, 4.9.3, 4.15.3, 4.15.13, 4.9.20 və 6.8-ci bəndlərinə əsaslanaraq,

**Qərara alıram:**

1. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP 29) keçirilməsi ilə əlaqədar rayonun hüquq mühafizə orqanlarının, tibb müəssisələrinin, yol infrastrukturu, mühəndis-kommunikasiya sistemlərinin yerli qurumlarının rəhbərlərindən ibarət Rayon İcra Hakimiyyəti başçısının yanında aşağıdakı tərkibdə xüsusi qərargah yaradılsın:

Elxan Allahverdiyev- Qərargahın sədri, Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı

Scanned with CamScanner

Qərargahın üzvləri:

Hacıbaba Babayev - Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının birinci müavini

Sevinc Süleymanova - Binəqədi Rayon İcra Hakimiyyətinin başçısının müavini

İlqar Məmmədov - Binəqədi Rayon Polis İdarəsinin rəisi

Fuad Məmmədov - Binəqədi Rayon Prokuroru

Fərhad Bayramlı - Dövlət Təhlükəsizlik Xidmətinin Binəqədi Rayon

İdarəsinin rəisi

Rəşadət Babayev - Binəqədi Rayonu Mühafizə İdarəsinin rəisi

Mehdi Mehdizadə - FHN-in Dövlət Yanğın Nəzarəti Xidmətinin 1-ci ərazi Dövlət Yanğın Nəzarəti İdarəsinin rəisi

Emil Hüseynov - Binəqədi Rayonu üzrə Fövqəladə Hallar və Mülki Müdafiə şöbəsinin rəisi

Elmin Zamanov - Binəqədi Rayon Mənzil Komunal Təsərrüfatı Birliyinin rəisi

Fədai Hacıyev - Gigiyena və Epidemiologiya mərkəzinin direktoru

Qismət Quliyev - 14 saylı Yol İstismar MMC-nin rəisi

Müşviq Mirzəyev - Binəqədi Tibb mərkəzi publik hüquqi şəxs

Abbas Quliyev - Binəqədi Elektrik Enerjisi Təchizatı və Satışı İdarəsinin rəisi

Səbuhi Zeynalov - Biləcəri Enerjisi Təchizatı və Satışı İdarəsinin rəisi

Ruslan Behbudov - Binəqədi Rayon Su Kanal İdarəsinin rəisi

Ziya Qasımov - Bakı Regional Qaz İstismar Departamentinin Binəqədi Rayonu üzrə texniki istismar Xidmətinin rəisi

Scanned with CamScanner

İlqar Bayramov - 2 saylı Rabitə xidmətlər mərkəzinin xətt qurğuları istismar şöbəsinin müdiri

2. Qərargaha tapşırılsın:

- Rayon ərazisində fasiləsiz elektrik enerjisi təchizatının təmin olunması ilə əlaqədar zəruri tədbirlərin görülməsi;
- Rayon ərazisinin fasiləsiz qaz təchizatının təmin edilməsi ilə əlaqədar zəruri tədbirlərin görülməsi;
- Rayon ərazisində su təchizatının və kanalizasiya şəbəkəsinin daima işlək vəziyyətdə saxlanması, su basma riski olan ərazilərin öncədən müəyyənləşdirilməsi, həmçinin qabaqlayıcı tədbirlərin görülməsi, su basma halları aşkar olunan ərazilərdə nəticənin aradan qaldırılması istiqamətində təxirə salınmaz tədbirlərin görülməsi;
- Rayon ərazisində avtomobil vasitələrinin və piyadaların maneəsiz hərəkətinin təmin edilməsi məqsədi ilə zəruri tədbirlərin görülməsi
- Zərurət olduğu hallarda təmirə ehtiyacı olan mərkəzi və qəsəbədaxili avtomobil yollarında təmir işlərinin aparılması;
- Rayon ərazisində baş vermiş hadisələr barədə dəqiq və operativ məlumatların əldə edilməsi və fəsadların qısa müddət ərzində aradan qaldırılması ilə əlaqədar qurumlarla koordinasiyanın qurulması;
- Rayon ərazisində sanitar-epidemioloji şəraitin yaxşılaşdırılması, ətraf mühitin qorunması və ekoloji təhlükəsizliyin təmin edilməsi, həmçinin məişət tullantılarının vaxtında daşınaraq sanitar təmizliyin daim diqqətdə saxlanılması və bu sahədə nəzarətin həyata keçirilməsi;

3. Qərargahın fəaliyyətini təmin etmək məqsədi ilə "qaynar xətti" yaradılsın və 08-23 noyabr 2024-cü il tarixlərində fasiləsiz növbətçilik təşkil edilsin.

4. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının İnformasiya Təminatı və Təhlili sektorunun müdiri Aynur Quliyevaya tapşırılsın ki, həyata keçirilmiş tədbirlər barədə məlumatları 05.11.2024-cü il tarixinədək RİAİS vasitəsilə təqdim edilməsini təmin etsin.

Scanned with CamScanner

5. Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Sabir Əliyevə tapşırılsın ki, Sərəncamın surətlərinin aidiyyəti təşkilatlara göndərilməsini təmin etsin.

6. Sərəncama nəzarəti öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**

**ƏSLİ İLƏ DÜZDÜR.**

**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

Scanned with CamScanner